DOI:10.30546/gdu.2023.79-84

**UDC: 95, 821.512.162 + 655.4/.5**

# QARABAĞ TARİXİ ELMİ NƏŞRLƏRDƏ

***(AMEA-nın "Elm" nəşriyyatının çap məhsulları əsasında)***

***Balayeva Ellada Məmməd qızı***
***Bakı Dövlət Universiteti***
***Redaksiya-Nəşriyyat işi kafedrasının dissertantı***
elladabalayeva@bsu.edu.az

***Xülasə:*** *Bu məqalədə Azərbaycanın müstəqilliyi illərində Milli Elmlər Akademiyası sistemində fəaliyyət göstərən "Elm" nəşriyyatının fəaliyyəti təhlil edilmişdir. Burada həmin nəşriyyatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə, bütövlükdə Qarabağın sosial-iqtisadi və ədəbi-mədəni inkişafına dair nəşr etdiyi çoxsaylı kitablar haqqında yığcam məlumat verilmişdir. Nəşriyyat həm, münaqişənin başlanğıc mərhələsində, həm münaqişə dövründə, həm də müharibədən sonrakı dövrdə bu istiqamətdə fəaliyyətini davam etdirmiş, əsasən Azərbaycan, rus, ingilis dillərində bir çox lazımlı kitabların nəşrini həyata keçirmişdir.*

*Ümumiyyətlə, "Elm" nəşriyyatı 1991-2021-ci illər ərzində Qarabağın tarixi, ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatına dair müxtəlif dillərdə 100-dən çox adda kitab nəşr etmişdir ki, onların ümumi tirajı 100 min nüsxədən çoxdur.*

**Açar sözlər:** Azərbaycan Milli Elmlər Akademiyası, "Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi, kitab repertuarı, Qarabağ mövzusunda nəşrlər.

**Ключевые слова:** Национальная академия наук Азербайджана, репертуар книги, издания произведений, публикация о Карабахе, издательство "Элм" ("Наука").

**Key words:** Azerbaijan National Academy of Sciences, "Elm" ("Science") Publishing and Printing Center, book repertoire, publication on Karabakh.

## Giriş

Azərbaycan Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası sistemində fəaliyyət göstərən "Elm" nəşriyyatı müstəqillik dövründə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə, bütövlükdə Qarabağın sosial-iqtisadi və ədəbi-mədəni inkişafına dair çoxsaylı kitablar nəşr etmişdir. Xatırladırıq ki, hələ münaqişənin başlanğıc mərhələsində nəşriyyat A.Rəhmaninin "Азербайджан: границы и админстративное деление в конце XVI-XVII вв. Азербайджан" (rus dilində, 1987), akademik Əlisöhbət Sumbatzadənin "Азербайджанцы – этногенез и формирование народа" (rus dilində, 1990, 304 с.), rus publisisti Vasili Veliçkonun "Кафказъ. Русское дело и междуплеменные вопросы" (rus dilində, 1990, 224 с.), akademik İqrar Əliyevin "Dağlıq Qarabağ" (1989, 120 s.) və "Нагорный Карабах: История. Факты. События" (rus dilində, 1989; 104 с.), həmçinin digər tarixi və aktual əsərləri çapdan buraxaraq mütəxəssislərin, eləcə də geniş oxucu auditoriyasının istifadəsinə vermişdi.

Nəşriyyat sonrakı dövrdə də bu istiqamətdə fəaliyyətini davam etdirmiş, əsasən Azərbaycan, rus, ingilis dillərində bir çox lazımlı kitabların nəşrini həyata keçirmişdir. Bu baxımdan D.Vəliyevin redaktəsi ilə "Erməni terrorizm və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada" (1994), Əsgər Abdullayevin "Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti: XIX əsrin axırı - XX əsr" (1998), kollektiv müəlliflərin "Historical facts of armenia's actions in azerbaijan land" (ingilis dilində, 2003), N.Babaşovun "Qarabağ memarlıq məktəbi – Füzuli abidələri" (2003), Aygün Həsənoğlunun "Erməni sindromu" (2007), Yunis Hüseynovun "Qarabağnamələr Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi" (2007), V.Kərimovun "Qafqaz Albaniyasının Zeyzit məbədi" (2008), Vidadi Muradovun "Azərbaycan xalçaları: Qarabağ qrupu", F.Qaraoğlunun "Ermənilər və həqiqətlər

DOI:10.30546/gdu.2023.79-84

kitabı" (2013), A.Şepotyevin "Доклад о спорных Кавказских территориях, на которые имеет права азербайджанские тюрки" (rus dilində, 2016) və digər nəşrlər mühüm əhəmiyyətə malikdir [4].

"Elm" nəşriyyatı 2002-ci ildə Əməkdar elm xadimi, akademik Tofiq Köçərlinin "Qarabağ" monoqrafiyasını 30 çap vərəqi həcmində, 300 nüsxə tirajla çapdan buraxmışdır. Qeyd edək ki, alim müasir Azərbaycan tarixinin aktual problemlərinin tədqiqi ilə ardıcıl məşğul olmuş, onlarla kitab və monoqrafiya, 200-dən artıq məqalə dərs etdirmişdir. Onun 1990-2007-ci illərdə yazdığı monoqrafiyalar, çoxsaylı məqalələr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərinə, erməni ekstremistlərinin xalqımıza qarşı törətdikləri cinayətlərin ifşa edilməsinə həsr edilmişdir.

Akademik Tofiq Köçərli 2005-ci ildə "Elm" nəşriyyatında çıxmış "Naxçıvan: Uydurmalar və tarixi həqiqətlər" monoqrafiyasında eyni zamanda Qarabağ tarixinin öyrənilməsi sahəsində vəziyyəti də araşdırmışdır. O, Azərbaycan alimlərinin bu sahədə bir neçə istiqamətdə əhəmiyyətli iş gördüklərini, o cümlədən sənədlər və materiallar məcmuələrinin hazırlanıb çap edildiyini, Qarabağın tarixinə bu və ya başqa şəkildə aidiyyəti olan orta əsr mənbələrin ilk dəfə azərbaycanca nəşr olunduğunu, Qarabağın qədim, orta əsrlər və yeni tarixini işıqlandıran elmi-tədqiqat əsərləri yaradıldığını və s. qeyd etmişdir. Bununla yanaşı, alimin fikrinsə, hələ görülməli çox iş var. Belə ki, Qarabağ haqqında kollektiv monoqrafiya hazırlanmalı, Qarabağ tarixinə və məsələsinə dair mühüm sənədlər ingiliscə nəşr edilməli, qısametrajlı sənədli "Qarabağ (tarixi oçerk)" filmi çəkilməli və yayılmalıdır [5].

Bəllidir ki, Azərbaycan çox qədim tarixə, zəngin mədəniyyətə malik olan bir ölkədir. Hələ qədim dövrlərdən burada yaşayan əhali sənətkarlıqla məşğul olmuşdur. İlk əvvəl daşda, dulus məmulatlarda və metalda ilkin şəkildə işlənmiş və bizim dövrümüzədək gəlib çıxmış motivlər sonrakı dövrlərin təsviri sənətində, o cümlədən tətbiqi sənətin müxtəlif növlərində, xalçaların ornament və kompozisiyalarında öz əksini tapmışdır. Qədim tarixə, zəngin naxış tərtibatına və ahəngdar rəng quruluşuna malik olan Qarabağ xalçaları əsrlər boyu bu diyara səfər etmiş səyahətçilərin, tədqiqatçıların diqqətini cəlb etmişdir.

Azərbaycan xalçaçılıq sənətini yaşatmağı və inkişaf etdirməyi qarşısına məqsəd qoymuş "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən Azərbaycanın bölgələrində xalça nümunələri, xalçaçılıq sənəti dərindən öyrənilir və toplanır. Bu istiqamətdə "Elm" nəşriyyatı 2010-cu ildə "Azərbaycan xalçaları – Qarabağ qrupu" adlı kitabı şapdan buraxmışdır. Cəmi 65 səhifədən ibarət olan jurnal formatlı, tam rəngli məlumat və xalçaçılıq nümunələri ilə zəngin olan toplu 6 dildə (Azərbaycan, ingilis, rus, alman, ərəb və fransız dilində) nəşr edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunmuş layihənin rəhbəri dosent Vidadi Muradovdur. Redaksiya heyətinə tarix elmləri doktoru Kərim Şükürov, sənətşünas Asya Şirəliyeva daxildir.

Layihədə dünya muzeylərində qorunan əntiq Qarabağ xalçalarının təsvirlərindən də istifadə edilmişdir. Həmçinin "Azər-İlmə" nin "Sehrli ilmələr " kolleksiyasından əntiq və "Azər-İlmə"də qədim xalça təsvirləri əsasında, tətbiqi boyalarla ipək və yun iplərdən istifadə etməklə istehsal olunan Qarabağ xalçalarının təsvirləri verilmişdir. Şuşa qalasının "Gəncə" qapısı (XVIII əsr) təsviri ilə başlayan topluda Azıx mağarasının girişi (Fizuli rayonu), Azıx adamın alt çənə sümüyü, zoomorf saxsı qab (e. ə. IX-VII əsrlər), Gəncəsər monastrı (Kəlbəcər rayonu, Vəngli kəndi, 1238-ci il), Şuşa qala divarı və bürcü (XVIII əsr), Qarabağ xanı İbrahim xana məxsus Şeşpər (XVIII əsr), Yatağan (XVIII əsr), Şuşa şəhər qalasının açarı (XVIII əsr), Dadivənd monastrı (IV əsr), Əsgəran qala divarları (XVIII əsr), "Türkmənçay müqaviləsinin imzalanması, 10 fevral 1828-ci il" və digər təsvirlər Qarabağın tarixinə nəzər salmağa kömək edir.

DOI:10.30546/gdu.2023.79-84

Toplu əsasən Azərbaycan xalçalarının Qarabağ qrupunu əhatə etdiyi üçün Qarabağ xalçaçılıq sənətinə elmi cəhətdən yanaşılır, təhlil edilir və qiymət verilir. Qarabağ xalçalarının təsvirləri də çox dolğun rənglərlə verilməklə "Toxucu qadın xana arxasında" (1905-ci il), "Şərq" orkestri Qarabağ xalçaları önündə (1920-ci il), Qarabağın "Açma-yumma" xalçası kəndli həyatində, xurcun (XIX əsr), ipək tikmə (XVII əsr), ipək tikmə "Qasımuşağı" (XVII əsr), Əjdahalı xalça "Xətai" (XVII əsr), xalça "Balıq" (XIX əsr), zili (XIX əsr), zili "Çələbi"(XX əsr), xalça "Bəhmənli" (XIX əsr) və digər onlarca xalçaçılıq nümunələri topluda rəngli əksini tapmaqla Qarabağ xalçaçılıq sənəti haqqında tam təsəvvür yaradır [2].

Bununla yanaşı, Heydər Əlıiyev Fondunun dəstəyi ilə "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyət və "Sehrli ilmələr" Azərbaycan Xalçaları Qalereyası 2010-cu ildə Vidadi Muradovun "Azərbaycan xalçaları: Qarabağ qrupu" – " Azerbaijani Carpets. Garabagh Group" albom kitabını nəşr etdirmişdir.

“Elm” nəşriyyatında Azərbaycan və ingilis dillərində nəfis şəkildə buraxılmış albom kitabın elmi redaktoru sənətşünaslıq doktoru, professor Kübra Əliyeva, rəyçiləri millət vəkili, tarix elmləri namizədi Havva Məmmədova, Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin direktor müavini Asya Şirəliyeva, ingilis dilinə tərcüməçisi Yalçın Səlimov, dizayneri Səbuhi Hüseynovdur.

Cəmi 272 səhifədən ibarət olan və nüsxə tirajla yayımlanana bu nəşrin annotasiyasında deyilir: "Azərbaycan xalçaları bütün məktəbləri ilə adlı böyük layihədən olan bu kitab Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ xalçaçılıq məktəbinə həsr edilmişdir. Kitabda Qarabağın keçdiyi tarixi inkişaf yolu, burada xalçaçılığın təşəkkülü, onun inkişafı mərhələləri, səciyyəvi xüsusiyyətləri əksini tapmışdır. Qarabağ xalçaçılıq məktəbi haqqında tam təsəwür əldə etmək üçün nadir xalçalardan ibarət illüstrativ materiallar verilmişdir. Onun əsas hissəsini “Azər-ilmə" MMC-nin "Sehrli ilmələr" qalereyasının tarixi Qarabağ xalçaları kolleksiyası və tarixi ənənə əsasında, bilavasitə “Azər-llmə'də toxunan xalçalar təşkil edir. Təqdim olunan hər bir tarixi xalçanın təsviri və texniki göstəriciləri verilmişdir.

Kitabda verilmiş bütün materiallar Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu, Qarabağın Azərbaycan tarixi və mədəniyyətinin üzvü hissəsi olduğunu bir daha təsdiq edir".

Kitabın üz qabığında Azərbaycanın Füzuli rayonunda yundan toxunmuş və Qarabağ qrupuna aid olan "Qoçbuynuz" xalça rəsminin təsviri verilmişdir.

Bu nəşr "Böyük layihə: Azərbaycan xalçaları bütün məktəbləri ilə" (The Large-scale Project: “Azerbaijani Carpet Schools”), Azərbaycanın Qarabağ bölgəsi: tarixi oçerk (The Garabagh Region ofAzerbaijan: A Historical Sketch), "Qarabağ xalçaları: tarixdən bu günə" (Garabagh Carpets: TheirPast and Present), "Qarabağda toxunmuş xalçalar və ipək tikmələrdünya muzeylərində və şəxsi kolleksiyalarda" (Garabagh Carpets and Silk Embroideries in the World Museums and Private Collections), "“Azər-ilmə” MMC-nin “Sehrli ilmələr” qalereyasının Qarabağ xalçaları kolleksiyasından (Garabagh Carpets in the Azer-llme Ltd “Magic Knots” Gallery’s Collection), "“Azər-ilmə” də toxunan Qarabağ xalçaları" (Garabagh Carpets produced byAzer-llme Ltd), "Biblioqrafiya" (Bibliography) bölmələrindən ibarətdir [3].

“Elm” nəşriyyatı 2018-ci ildə XIX əsrin məşhur ədəbi simalarından olan görkəmli təzkirəçi Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab” adlı əsərini çapdan buraxmışdır. İlk dəfə 1998-ci ildə nəşr olunmuş “Təzkireyi-Nəvvab” kitabının tərtibçisi və ön sözün müəllifi filologiya üzrə fəlsəfə doktoru Əkrəm Bağırovdur. AMEA-nın Əlyazmalar İnstitunun Elmi Şurasının qərarı ilə işıq üzü görmüş təzkirə iki hissədən ibarətdir. Birinci hissədə 35, ikinci hissədə isə 56 sənətkar haqqında məlumat verilmiş, onların əsərlərindən nümunələr təqdim edilmişdir.

DOI:10.30546/gdu.2023.79-84

2020-ci ilin payızında Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Silahlı Qüvvələrinin torpaqlarımızı erməni işğalından azad etməsi "Elm" nəşriyyatının kollektivində də böyük ruh yüksəkliyi yaratmışdır. Həmin il nəşriyyat akademik Zemfira Səfərovanın "Şuşa Azərbaycanın musiqi qalasıdır" kitabını çapa hazırlamışdır. Şuşanın 270 illiyinə həsr edilmiş kitabın birinci hissəsi XIX-XX əsrlərin görkəmli alimi, rəssamı və musiqişünası M.M.Nəvvab və onun musiqi haqqında önəmli risaləsi "Vüzuhül-ərqam" ("Rəqəmlərin izahı") haqqındadır. Kitabın ikinci hissəsi isə "Şərq musiqisinin peyğəmbəri" adlandırılan böyük ustad-xanəndə, şuşalı Cabbar Qaryağdıoğlunun həyatı və yaradıcılığına həsr edilmişdir.

2020-ci ildə "Elm" nəşriyyatının qrifi ilə görkəmli arxeoloq-alim, tarix elmləri doktoru, professor Hidayət Cəfərovun "Qədim Qarabağ (tarixi-arxeoloji tədqiqat: tunc və erkən dəmir dövrü)" adlı 528 səhifəlik monoqrafiyası çap olunmuşdur. Kitaba professorlar A.Seyidov və N.Müseyibli müsbət rəy yazmışlar.

Kitabda Azərbaycanın ayrılmaz və əzəli ərazisi olan Qarabağda Tunc və İlk Dəmir dövründə cərəyan etmiş etnik-mədəni proseslər izlənilir. Əsərdə yaşayış yerləri, qəbir abidələri, onlardan əldə olunmuş artefaktlar, ibtidai memarlıq, dəfn mərasimi, təsərrüfat sahələri, sənətkarlıq, iqtisadi-mədəni əlaqələr, ictimai quruluş və s. haqqında ətraflı məlumat verilir.

Səkkiz fəsildən ibarət əsərin birinci hissəsi Qarabağın arxeoloji abidələrinin tədqiqi tarixinə, ikinci hissəsi Qarabağın İlk Tunc dövrü, üçüncü fəsil Orta Tunc dövrü, dördüncü fəsil Son Tunc və İlk Dəmir dövrü abidələrinə və artefaktlara həsr edilmişdir. Beşinci fəsildə abidələrin xronoloji dövrləşdirilməsi problemlərinə toxunulmuşdur. Monoqrafiyanın altıncı fəslində tədqiq edilən dövrdə regionun təsərrüfat həyatından və sənətkarlıqdan bəhs edilir. Son hissələrdə isə göstərilən dövrlərdə Qarabağın ətraf dünya ilə mədəni-iqtisadi əlaqələrinə, qədim əhalinin ictimai quruluşuna aydınlıq gətirilmişdir. Müəllif arxeoloji faktlarla Qarabağın Tunc dövründə etnik və mədəni baxımdan Azərbaycanın digər regionları ilə üzvü surətdə bağlı olduğunu göstərmişdir.

Professor Abbas Seyidov qeyd edir ki, tədqiqatçı H.Cəfərovun çoxillik elmi araşdırmaları ilə ümumi Azərbaycan tarixi fonunda Qarabağın e.ə. IV minilliyin ikinci yarısı ilə e.ə.I minilliyin əvvəllərini əhatə edən dövrünün aktual problemlərinə işıq salınması önəmli yer tutur. Bu monoqrafiya həmin tədqiqatların toplum halında bir elmi əsərdə cəmləşməsi baxımından diqqətəlayiqdir... Monoqrafiya Azərbaycan dilində yazılsa da, rus dilində geniş xülasə ilə oxucuya çatdırılır. Əsərdə Qarabağın bu qəbildən olan abidələri haqqında qiymətli məlumatlar verilir.

Təsvirçilikdən uzaq qaçmağa çalışan müəllif arxeoloji mənbələr əsasında bir sıra nəzəri müddəaları irəli sürmüş və faktların köməyi ilə onları əsaslandırmışdır. Buraya iqtisadi durum, iqtisadi-mədəni əlaqələri doğuran səbəblər, ictimai quruluşda baş verən təbəddüllatların kökünün müəyyənləşdirilməsi və sair problemlər daxildir [6].

2021-ci ildə "Elm" nəşriyyatında akademik Ramiz Mehdiyevin layihə rəhbərliyi və "Ön söz"ü ilə 44 günlük Vətən müharibəsinə həsr olunan "Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək" kitabı işıq üzü görmüşdür. Kitabı nəşrə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli və A.A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürov hazırlamışlar [7].

Kitabda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi – İkinci Qarabağ müharibəsi və post-müharibə dövründə xalqa müraciətləri, müsahibələri, tarixi qələbə münasibətilə paradda nitqi, ölkə rəhbərinə ünvanlanmış teleqramlar, Prezidentə müraciətlər, fərman və sərəncamlar, yerli və xarici media nümayəndələri üçün mətbuat konfransının materialları, Şuşa Bəyannaməsi və bu münasibətlə

DOI:10.30546/gdu.2023.79-84

Azərbaycan və Türkiyə prezidentlərinin mətbuat üçün bəyanatları toplanmışdır. İlk dəfə olaraq təqdim edilən materialların təsnifatı aparılmış və "Ön söz"də əhatəli şərhi verilmişdir.

Nəşrin "Ön söz"ündə deyilir: "İlham Əliyevin 2003-cü ildən başlayan Prezidentlik fəaliyyətində 2020-ci il 27 sentyabr ilə yeni, daha möhtəşəm bir mərhələ açılır. Bu mərhələ 27 sentyabrda Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasına qarşı hərbi təxribatı və dövlətin bu təxribatın qarşısının alınması üçün genişmiqyaslı tədbirlər həyata keçirməsi, faktiki olaraq Vətən müharibəsi – İkinci Qarabağ müharibəsi ilə başlanır. Prezident, Ali Baş Komandan İlham Əliyev həmin gün xalqa özünün tarixi müraciətini edir. ...Prezident İlham Əliyevin xalqa müraciətləri ardıcıl və sistemli xarakter daşımış, mənasına və informasiya bazasına, təsir qüvvəsinə görə Vətən müharibəsində Azərbaycan dövlətinin və xalqının mövqeyini açıq və aydın şəkildə əks etdirmişdir. Dövlət başçısı bu müraciətlərilə xalqı qələbə ətrafında birləşdirir, onun birliyini təmin edir, onu məlumatlandırır, eyni zamanda bu vasitə ilə dövlət və xalqın birliyi haqqında dünyaya mesaj verirdi. Bu gün birmənalı şəkildə təsdiqləmək olar ki, Prezident İlham Əliyevin xalqa müraciətləri müharibədə qələbənin ən önəmli vasitələrindən biri olmuşdur".

"Ön söz"də həmçinin Prezident İlham Əliyevin müharibədə qələbə strategiyasına malik olduğu kimi, post-müharibə dövründə işğaldan azad edilmiş rayonların bərpası, onların ümumölkə həyatına inteqrasiyasının uğurla həyata keçirilməsinə dair konsepsiyaya malik olduğunu sübut etdiyi vurğulanmışdır. Təqdim olunan toplu Prezident İlham Əliyevin 44 günlük müharibə və ondan sonrakı dövr ərzində gərgin fəaliyyət istiqamətlərinin mənzərəsini yaratmaqla bərabər, dövrün beynəlxalq münasibətləri, beynəlxalq hüquq, demokratiya və insan haqları barədə dərin və əsaslandırılmış mühakimələri meydana qoyur.

Vəsait ölkə başçısının Qarabağın erməni işğalından azad edilməsi üçün apardığı məqsədyönlü siyasəti və Qalib Ali Baş Komandan kimi həyata keçirdiyi çoxcəhətli və düşünülmüş tədbirləri əks etdirən mühüm tarixi əhəmiyyətə malik olan sənədlərin və materialların dəqiq və əhəmiyyətli bir külliyatıdır [7].

Bütün bunlarla yanaşı, onu da vurğulamalıyıq ki, erməni işğalından azad olunmuş bölgələrimizdə 1990-cı illərin əvvəllərinədək fəaliyyət göstərmiş kitabxanaların kitab fondlarının bərpası ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə M.F.Axundzadə adına Milli Kitabxana birgə kitabtoplama kampaniyası həyata keçirmişdir. 2021-ci ilin əvvəllərində AMEA-nın "Elm" nəşriyyatı da bu mühüm kampaniyaya qoşulmuş, işğaldan azad olunan bölgələrdəki kitabxanaların fonduna özünün nəşr etdiyi maraqlı və əhəmiyyətli kitablardan 1500 nüsxə hədiyyə vermişdir. Həmin nəşrlər arasında Qarabağa, Şuşa çəhərinə, eləcə də digər sahələrə həsr olunmuş kitablar üstünlük təşkil edir.

Ümumiyyətlə, "Elm" nəşriyyatı 1991-2021-ci illər ərzində Qarabağın tarixi, ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatına dair müxtəlif dillərdə 100-dən çox adda kitab nəşr etmişdir ki, onların ümumi tirajı 100 min nüsxədən çoxdur.

### *Ədəbiyyat*

1. Aslan K., Tahirqızı Ş., Mehrəliyeva N. Nəşriyyat işi və redaktə məsələləri. – Bakı: "Müəllim" nəşriyyatı, 2018. - 384 s.
2. Azərbaycan xalçalarının Qarabağ qrupu toplusu 6 dildə nəşr olunub / http: //old. xalqqazeti. com/az/news/culture/15125 (08.09.2011)
3. Vidadi Muradov. Azərbaycan xalçaları. Qarabağ qrupu. - Bakı: Elm, 2010. - 272 s.
4. https://science.gov.az/az/news/open/15948
5. www.science.gov.az
6. Seyidov, Abbas. Azərbaycan tarixinin yeni salnaməsi: Qədim Qarabağ // Bakı: Xəzər Universiteti Nəşriyyatı: Azərbaycan Arxeologiyası. - 2020, cild 23, №2, 134-136.

DOI:10.30546/gdu.2023.79-84

7. “Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək” kitabı çap olunub / https://525.az/news/176583-zefer-yolu-qarabag-savasindan-susa-beyannamesinedek-kitabi-cap-olunub

## ИЗДАНИЯ ОБ ИСТОРИКО-ПОЛИТИЧЕСКОЙ, СОЦИАЛЬНО-КУЛЬТУРНОЙ ЖИЗНИ КАРАБАХА
### (По материалам книг, изданных издательством "Элм" ("Наука")

***Балаева Эллада  Мамед гызы***

***Резюме***

В этой статье анализируется деятельность издательства "Элм" ("Наука") Национальной академии наук Азербайджана в годы независимости. Здесь дана краткое изложение многочисленных книг, опубликованных издательством по истории армяно-азербайджанского, нагорно-карабахского конфликта, а также о социально-экономическом и литературно-культурном развитии Карабаха в целом. Издательство продолжило свою деятельность в этом направлении как на ранних стадиях конфликта, так и в послевоенном периоде. Эти книги были изданы в основном в азербайджанском, русском и английском языках.

В целом, в течение 1991-2021 годов издательство "Элм" ("Наука") опубликовало более 100 книг по истории, социально-политической, социально-экономической и научной культурной жизни Карабаха на разных языках с общей циркуляцией более 100 000 экземпляров.

## PUBLICATIONS ABOUT THE HISTORICAL-POLITICAL, SOCIO-CULTURAL LIFE OF KARABAKH
### (Based on the materials of books published by the publishing house "Elm" ("Scien ce"))

***Balayeva Ellada Mamed***

***Summary***

This article analyzes the activities of the Publishing House "Elm" ("Science"), which operated in the system of the National Academy of Sciences during the years of independence of Azerbaijan. Here is a summary of the numerous books published by the publishing house on the history of the Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh, as well as on the socio-economic and literary-cultural development of Karabakh in general. The publishing house continued its activities in this direction both in the early stages of the conflict, during the conflict, and in the post-war period, and produced many useful books, mainly in Azerbaijani, Russian and English.

In general, during 1991-2021, the "Elm" Publishing House published more than 100 books on the history, socio-political, socio-economic and scientific-cultural life of Karabakh in different languages with a total circulation of more than 100,000 copies.

***Rəyçi: dos. Knyaz Aslan***
***Redaksiya-Nəşriyyat işi kafedrasının 14 iyun 2023-cü il  tarixli iclasından***
***Daxil olma tarixi 16 iyun 2023-cü il***